Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 4 (24.439)
30 yanvar 2025-ci il, cümə axşamı
www.serqqapisi.az
Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Prezident İlham Əliyev 1 saylı seçki məntəqəsində səs verib





Yanvarın 29-da Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs verib.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 576 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 31 namizəd mübarizə aparıb.





## Səlahiyyətli nümayəndə 4-32 saylı seçki məntəqəsində səs verib





Yanvarın 29-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Dövlət Texniki Kollecində yerləşən 4-32 saylı seçki məntəqəsində səs verib.

Qeyd edək ki, 2025-ci il yanvarın 29-u ölkəmizdə növbəti bələdiyyə seçkiləri günüdür. Muxtar respublikada 330 məntəqədə səsvermə prosesi həyata keçirilib və 44 bələdiyyəyə 512 üzv seçiləcək.

## Fuad Nəcəfli İqtisadi Şuranın iclasında Naxçıvan Muxtar Respublikasında AİZ yaradılması ilə bağlı çıxış edib

İqtisadi Şuranın iclası keçirilib, 2025-ci il üzrə Fəaliyyət Planı müzakirə olunub.

Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.

İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Prezident İlham Əliyevin yanvarın 7-də yerli





televiziya kanallarına verdiyi geniş müsahibəsindən irəli gələn tapşırıqlar, 2024-cü ilin sosial-iqtisadi inkişaf göstəriciləri və İqtisadi Şuranın 2025-ci il üzrə Fəaliyyət Planı, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Azad İqtisadi Zonanın (AİZ) yaradılması ilə bağlı məsələlər, ölkəmizin beynəlxalq maliyyə institutları və fondları ilə əməkdaşlığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2024-cü il üzrə Fəaliyyət Hesabatı və 2025-ci il üçün Fəaliyyət Planı və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə iqtisadiyyat naziri Mikayıl Cabbarovun və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib.

İclasda iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov da Naxçıvan Muxtar Respublikasında AİZ yaradılması ilə bağlı çıxışlar edib.

Təqdim olunan məsələlərə dair İqtisadi Şura üzvləri tərəfindən geniş müzakirələr aparılıb. İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Ali Məclis sədrinin birinci müavini Naxçıvan şəhərindəki 5-32 saylı seçki məntəqəsində səs verib





Yanvarın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov 5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsinin 32 saylı seçki məntəqəsində səs verib.

Qeyd edək ki, 2025-ci il yanvarın 29-u ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçirilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib



Yanvarın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasda VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il payız sessiyası ərzində komitənin fəaliyyətinə dair hesabatını diqqətə çatdırıb. Yaz sessiyasında görüləcək işlər də müzakirə olunub, Ali Məclisin qanunvericilik işləri planına dair təkliflər irəli sürülüb.

Sonda məsələ ilə əlaqədar komitə üzvlərinin çıxışları dinlənilib.

## Ali Məclisin İqtisadi siyasət komitəsinin iclası olub

Yanvarın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

Komitə sədri Emin Şıxəliyev iclasda Ali Məclisin 2024-cü ilin payız sessiyası dövründə rəhbərlik etdiyi komitədə görülən işlər barədə hesabatla çıxış edib. Eyni zamanda yaz sessiyasında görüləcək işlər müzakirə olunub, Ali Məclisin qanunvericilik işləri planına dair təkliflər irəli sürülüb.



Sonda məsələ ilə əlaqədar komitə üzvlərinin çıxışları dinlənilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasında 6 dairə, 330 məntəqə üzrə 44 bələdiyyəyə seçkilər keçirilib

### *Naxçıvan şəhəri*



Yanvarın 29-da ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bələdiyyə seçkiləri keçirilib. Seçkilər 6 dairə, 330 məntəqə üzrə 44 bələdiyyəni əhatə edib. Həmin dairələrdə, ümumilikdə, 286 min 956 seçici qeydiyyata alınmışdır. Muxtar respublikada 44 bələdiyyə üzrə 512 yer uğrunda 970 namizəd mübarizə aparıb.

Səhər saatlarından Naxçıvan şəhərində fəaliyyət göstərən bir neçə məntəqədə seçki prosesini müşahidə etdik. 4 saylı Naxçıvan şəhər seçki dairəsinin sədri Ramil Sadiqovun verdiyi məlumata görə, dairə üzrə yaradılmış 44 məntəqənin 4-də veb-kameralar quraşdırılıb.

Qeyd edək ki, dairədə 46 mindən çox seçici qeydiyyata alınmışdır ki, onlardan 237-si ilk dəfə səsvermə hüququndan istifadə edənlər idi.

Naxçıvan Tibb Kollecində yerləşən və 1262 seçicinin qeydə alındığı 4 saylı Naxçıvan şəhər seçki dairəsinin 12 saylı məntəqəsində prosesin qanunamüvafiq həyata keçirildiyinin şahidi olduq. Məntəqə seçki komissiyasının sədri müvafiq tədbirləri həyata keçirdikdən sonra seçkiyə start verildi.

Məlumat üçün bildirək ki, 4-12 saylı məntəqədə seçkilərin yüksək əhvali-ruhiyyədə keçməsi, şəffaflığın təmin edilməsi,



yerli müşahidəçilərin, eləcə də media nümayəndələrinin prosesi sərbəst izləməsi üçün əlverişli şərait yaradılmış, veb-kamera quraşdırılmışdı.

Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yerləşən 4-9 saylı seçki məntəqəsinin sədri Aynur Rzayeva bildirdi ki, bu məntəqədə də bütün zəruri tədbirlər görülmüş, məntəqə seçki komissiyasının üzvləri ilə maarifləndirici tədbirlər aparılmış, məntəqə zəruri avadanlıqlarla təchiz edilmişdir.



4-25 saylı seçki məntəqəsi Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdə yerləşirdi. Digər məntəqələrdə olduğu kimi, burada da hər kəs seçici siyahısından adını rahatlıqla tapır, sonra məntəqəyə daxil olaraq azad şəkildə səsvermə hüququndan istifadə edirdi. Məntəqə üzrə 1157 seçici qeydiyyata alınmış, prosesin şəffaf keçməsi üçün qanunvericiliyə uyğun lazımi şərait yaradılmışdı.

*Ardı 3-cü səhifədə*

## Şərur rayonu




Bələdiyyə seçkilərində 1 saylı Şərur-Sədərək və 2 saylı Şərur-Kəngərli seçki dairələrinin Şərur rayonunda yerləşən seçki məntəqələrində seçicilər öz namizədlərini seçmək üçün fəallıq göstərirdilər. 2 saylı Şərur-Kəngərli seçki dairəsi üzrə, ümumilikdə, 1-i qapalı olmaqla, 58 məntəqə üzrə 50 min 224 seçici, 1 saylı Şərur-Sədərək seçki dairəsi üzrə isə 2-si müvəqqəti olmaqla, 54 məntəqə üzrə 48 min 81 seçici qeydiyyata alınmışdı.

2 saylı Şərur-Kəngərli seçki dairəsi üzrə Şərur rayonunda 42 seçki məntəqəsi yaradılmışdı. Məntəqələr üzrə 34 min 580 seçici qeydiyyata alınmışdı. Həmin dairə üzrə Şərur rayonunda ilk dəfə seçki hüququndan istifadə edən 228 seçici üçün hərtərəfli şərait təmin edilmişdi. Seçkilərin gedişatına nəzarət etmək üçün 2 saylı Şərur-Kəngərli seçki dairəsinin Şərur rayonu üzrə məntəqələrində 3 veb-kamera quraşdırılmışdı. Qeyd edək ki, Şərur rayonunda dairə üzrə ən yaşlı seçicilər Çəmənli kənd sakini, 1924-cü il təvəllüdlü Misri Qulu qızı Quliyeva və Qarahəsənli kənd sakini, 1924-cü il təvəllüdlü Fatma Mirhüseyn qızı Həsənova idi.

1 saylı Şərur-Sədərək seçki dairəsinin Şərur rayonunda yaradılan 43 məntəqəsi üzrə isə 35 min 49 seçici qeydiyyata alınmışdı. Seçki dairəsi üzrə 234 nəfər ilk dəfə seçki hüququndan istifadə edib. Adıçəkilən seçki dairəsinin Şərur rayonunda yerləşən məntəqələri üzrə ən çox seçici sayı 1-21 saylı Cəlilkənd məntəqəsində idi. Qeyd edək ki, 1 saylı Şərur-Sədərək seçki dairəsi üzrə seçki gedişatına nəzarət etmək üçün, ümumilikdə, 7 veb-kamera quraşdırılmışdı. Bunlardan 6-sı dairənin Şərur rayonunda yerləşən məntəqələrində idi.

Seçicilərin seçkilərlə bağlı fikirlərini öyrənmək üçün rayonun Yengicə kəndindəki seçki məntəqəsində Vətən müharibəsi qazisi Siyavuş Həsənovla həmsöhbət olduq. O dedi: "30 ildən sonra Şuşa, Laçın və digər rayonlarımız işğaldan azad edildi. Xoşbəxt insanlarıq ki, Qarabağımıza həyatın qayıtmasında payımız oldu. Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra zəfər seçkisində hamılıqla iştirak edib qalib xalqın Müzəffər Sərkərdəsinə səs verdik. Ötən il həm də xalqımız parlament seçkilərində millət vəkillərinə etimadını göstərdi. Bu gün isə bələdiyyə seçkilərinə gəlmişik. Dövlətimiz və xalqımız var olsun".

## Babək rayonu



Bələdiyyə seçkiləri 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsində də öz mütəşəkkilliyi ilə yadda qaldı. Məlumat üçün qeyd edək ki, 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsində 64 seçki məntəqəsinin 59-u daimi fəaliyyət göstərir. 5 seçki məntəqəsi isə seçki gününə beş gün qalmış yaradılıb. Daimi fəaliyyət göstərən məntəqələrin 25-i Şahbuz, 5-i Kəngərli, 29-u isə Babək rayonundadır. Seçki günü Babək şəhərindəki məktəbdə yerləşən 3-1, Mədəniyyət Sarayında yaradılmış 3-2 saylı seçki məntəqələrində olduq. Səsvermənin mütəşəkkil keçirildiyini müşahidə etdik.

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin 3-3 saylı seçki məntəqəsi üzrə 1179 seçici qeydiyyata alınmışdı ki, onlardan 1-i ilk dəfə öz seçki hüququndan istifadə edib. Məlumat üçün bildirək ki, bu məntəqə də daxil olmaqla seçki dairəsi üzrə, ümumilikdə, 7 veb-kamera quraşdırılmışdı. Babək rayonunun ərazisində olan 3-14 və 3-20 saylı seçki məntəqələrində də seçkilərə hazırlıq Seçki Məcəlləsinə uyğun aparılmışdı.



Dairənin 3-7 saylı seçki məntəqəsində də olduq. Bu məntəqədə 1241 seçici qeydiyyata alınıb və onlardan 2-si ilk dəfə seçkilərdə iştirak edib.

3 saylı Babək-Kəngərli-Naxçıvan dairə seçki komissiyasının sədri Tamaddin Hüseynov məlumat verdi ki, dairənin dislokasiyasına daxil olan məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri arasında seçkiqabağı maarifləndirmə işləri aparılıb. Həmin məntəqələrdə seçkilərin uğurla başa çatması üçün hərtərəfli şərait yaradılıb.

## Ordubad rayonu




Bələdiyyə seçkilərində 6 saylı Ordubad-Culfa seçki dairəsinin əhatə etdiyi ərazilər üzrə 45 841 seçici, Ordubad rayonu üzrə isə 30 310 seçici qeydiyyata alınmışdı. Bu dairə üzrə 273, Ordubad rayonu üzrə isə 166 nəfər ilk dəfə olaraq səs verib.

Seçicilərin səsverməsi üçün 6 saylı Ordubad-Culfa seçki dairəsində 63 seçki məntəqəsi yaradılmışdı ki, bunlardan da 42-si Ordubad rayonunda, 21-i isə Culfa rayonunda təşkil olunmuşdu. Həmin məntəqələrin hər biri seçicilərin rahat səsverməsi üçün bütün lazımi avadanlıqlarla təchiz edilmişdi. Bu dairə üzrə seçkiləri 678 yerli müşahidəçi izləyib.

6 saylı Ordubad-Culfa seçki dairəsinin Ordubad rayon uşaq musiqi məktəbində yerləşən 2 saylı seçki məntəqəsində olduq. 1474 seçicinin qeydiyyata alındığı məntəqədə fəallıq diqqətdən yayınmırdı. Bu məntəqədə 2 seçici ilk dəfə olaraq səsvermə hüququ qazanmışdı.

Ordubad şəhərindəki şahmat məktəbində yerləşən 1 saylı seçki məntəqəsində isə 1359 nəfər seçici qeydə alınıb. Bu məntəqədə 13 nəfər ilk dəfə olaraq səs vermək hüququna malik idi.

6 saylı Ordubad-Culfa seçki dairəsinin tərkibində olan seçki məntəqələrində 7 veb-kamera quraşdırılmışdı.

## Culfa rayonu



5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsinin Culfa şəhərində yaradılmış 35 və 36 saylı seçki məntəqələrində olduq. 35 saylı seçki məntəqəsində seçici sayı 1477, 18 yaşı tamam olan, ilk dəfə səs verəcək seçici isə 9 nəfər idi. 36 saylı seçki məntəqəsində 1475 seçici qeydə alınmışdı.

Adıçəkilən seçki məntəqələrində seçicilərin səsvermə hüququndan istifadə etdiklərinin, fəallıq göstərdiklərinin şahidi olduq. Rayon sakinləri günün erkən saatlarından etibarən məntəqələrə üz tutaraq səsverməyə gəlirdilər. Hər bir seçici seçici siyahısı olan lövhələrdə öz adını dəqiqləşdirərək məntəqəyə daxil olur, seçki bülletenini aldıqdan sonra istədiyi namizədə səs verirdi.



6 saylı Ordubad-Culfa seçki dairəsinin Yaycı kəndindəki 43 saylı seçki məntəqəsində səs verən 1923-cü il təvəllüdlü, 102 yaşlı Culfa rayonunun Yaycı kənd sakini Abdulla Səfərov "Şərq qapısı"na müsahibəsində bildirdi ki, daşınan qutuya ehtiyac duymur. Son illərdə keçirilən seçkilərdə özü gəlib iştirak edir, istədiyi namizədə səs verir. Seçkilərin şəffaf keçirilməsinə görə məmnunluq hissi duyur.

Abdulla Səfərov deyir ki, Ali Baş Komandanın rəhbərliyi ilə qazandığımız Zəfərdən sonra ölkədə keçirilən seçkilərdə iştirak etmək, həqiqətən də, qürurvericidir. O, 2024-cü ildə keçirilən prezident seçkilərində də iştirak edib.

Yazıçı-publisist, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Fərəc Fərəcovla həmin məntəqədə görüşüb həmsöhbət olduq. O bildirdi ki, 1999-cu ildə yaradılan, yerli özünüidarəetmə təsisatı olan bələdiyyələr



müstəqil dövlətçiliyimizin həyatında önəmli yer tutur. Ona görə də onların fəaliyyətləri ildən-ilə təkmilləşdirilir və genişləndirilir. Bələdiyyələrdə çalışanlara hərtərəfli şərait yaradılır. Bu səbəbdən də insanların bələdiyyələrə inamları getdikcə artır. Seçki ərəfəsində namizədlərin keçirdiyi təbliğat-təşviqat kampaniyaları zamanı bunu bir daha hiss etdik. Mən kənddəki 2 saylı tam orta məktəbdə yaradılmış, hərtərəfli şəraitlə təmin edilmiş 6-43 saylı məntəqədə öz iradəmlə ictimai işlərdə fəallığını gördüyüm, təşkilatçılıq qabiliyyəti olan namizədlərə səs verdim.

Açığını deyim ki, kənd sakinlərinin də, mənim də yenidən formalaşacaq bu təşkilatdan gözləntilərimiz çoxdur. Bacarıqlı bələdiyyə sədri və fəal üzvlər olarsa, çoxlu layihələr həyata keçirmək çətin deyil.

## Şahbuz rayonu



3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi üzrə 5-i səsvermə gününə 5 gün qalmış yaradılmaqla 64 seçki məntəqəsi fəaliyyət göstərib. Həmin məntəqələrdən 29-u Şahbuz rayonu ərazisində yerləşir. Adıçəkilən dairə üzrə 47 min 95 seçici qeydə alınmışdı ki, onlardan 16 min 779-u Şahbuz rayonunun sakinidir. Bu bölgədə də fəaliyyət göstərən məntəqələrdə seçicilərin səs verməsi üçün hərtərəfli şərait yaradılmış, seçkilərin şəffaf və heç bir qanun pozuntusuna yol verilmədən keçirilməsi üçün lazımi işlər görülmüşdü. İki məntəqədə veb-kamera quraşdırılmışdı. Rayonda 29 nəfər ilk dəfə səsvermə hüququndan istifadə edib.

Qeyd edək ki, 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin əhatə etdiyi bütün məntəqələrdə seçkilər demokratik şəkildə keçirilib.

## Kəngərli rayonu




3 saylı Babək-Şahbuz-Kəngərli və 2 saylı Şərur-Kəngərli seçki dairəsi üzrə Kəngərli rayonunda yerləşən seçki məntəqələrində də seçici sıxlığı müşahidə edilirdi. Məlumat üçün bildirək ki, 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi üzrə Kəngərli rayonunda 1-i qapalı olmaqla, 6 məntəqə yaradılmışdı. 5 daimi seçki məntəqəsi üzrə, ümumilikdə, 5667 seçici, müvəqqəti yaradılan 1 qapalı seçki məntəqəsi üzrə isə 195 seçici qeydiyyata alınmışdı. Həmin dairə üzrə Kəngərli rayonunda 11 nəfər ilk dəfə seçki hüququndan istifadə edib.

2 saylı Şərur-Kəngərli seçki dairəsi üzrə isə Kəngərli rayonunda 1-i müvəqqəti olmaqla, ümumilikdə, 16 məntəqə üzrə 15 min 644 seçici qeydiyyata alınmışdı. Həmin seçki dairəsi üzrə 125 nəfər 18 yaşı tamam olmuş gənc ilk dəfə seçki hüququndan istifadə etmək imkanı qazanıb. Ən yaşlı seçici isə rayonun Qıvraq qəsəbəsində yerləşən 2-44 saylı məntəqə üzrə qeydiyyata alınan 1920-ci il təvəllüdlü Hüseynəliyeva Şərəf Muxtar qızı olub.

2 saylı Şərur-Kəngərli seçki dairəsi üzrə Kəngərli rayonunda yerləşən məntəqələr üzrə 2 veb-kamera quraşdırılmışdı. Seçicilərin seçki ilə bağlı fikirlərini də öyrəndik. Rayonun Qıvraq qəsəbə sakinləri 81 yaşlı Kamil Nəcəfov, digər ağsaqqallar Tariyel Tarverdiyev, Məmməd Məmmədov, Musa Cəfərov və başqaları bildirdilər ki, bu gün bələdiyyəyə üzv seçilənlərin rayonun inkişafında fəal iştirak edəcəklərinə inanırlar.

## Sədərək rayonu



1 saylı Şərur-Sədərək seçki dairəsinin Sədərək rayonu üzrə təşkil edilmiş, ümumilikdə, 11 seçki məntəqəsində də fəallıq müşahidə olunub. Rayonda seçicilərin ümumi sayı 13 min 32 nəfərdir ki, bunlardan da 109-u ilk dəfə səs verdi. Seçki prosesinin necə keçirildiyini yaxından izləmək üçün müşahidələrimizə rayon ərazisində yerləşən 1 saylı Şərur-Sədərək seçki dairəsinin 42 saylı seçki məntəqəsindən başladıq. Səhər saatlarından etibarən həmin məntəqədə sıxlıq müşahidə edilir, rayon sakinlərinin də fəallıqları hiss olunurdu.



Səsverməyə gələn seçicilər seçici siyahısında öz adlarını dəqiqləşdirdikdən sonra məntəqəyə daxil olub səs verirdilər. Dairənin 51 saylı seçki məntəqəsində də olduq. Burada ilk dəfə səs vermək üçün gəlmiş Fərid Hənifəzadənin fikirlərini öyrəndik. Həmsöhbətimiz bildirdi ki, seçkilərdə ilk dəfədir, iştirak edir və həyəcanlıdır. O, inanır ki, seçdiyi namizəd yerli özünüidarə sisteminin təkmilləşdirilməsi və inkişafı üçün əlindən gələni əsirgəməyəcək. Öyrəndik ki, o, Naxçıvan Dövlət Universitetinin 2-ci kurs tələbəsidir və bundan sonrakı bütün seçkilərdə fəal iştirak edəcək.

İlk dəfə səs verən Şərur rayon Zeyvə kənd sakini Araz Vəliyev bizimlə təəssüratlarını belə bölüşdü: "Bu gün özüm, eləcə də ailə üzvlərim seçkidə fəal iştirak edərək 1 saylı Şərur-Sədərək seçki dairəsinin 16 saylı seçki məntəqəsində səs verdik. Yaradılan şərait yüksək səviyyədədir. İlk dəfə səsvermə hüququmdan istifadə etdim. Bu həm də bizim vətəndaşlıq borcumuzdur. İnanıram ki, bələdiyyələrin bundan sonrakı fəaliyyəti daha da təkmilləşəcək".

Gəldiyimiz qənaət belə oldu ki, seçkilər Sədərək rayonunda da mütəşəkkil, azad və şəffaf keçirildi. Seçicilər qeydə alınmış namizədlərə öz iradələrinə uyğun olaraq səs verərək vətəndaşlıq borclarını yerinə yetirdilər.

# Bələdiyyə seçkilərindən gözləntilər



*Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapan, 1999-cu ilin dekabrında ilk seçkilərin keçirilməsi ilə yaradılan bələdiyyə institutunun inkişafı, fəaliyyəti üçün ötən dövrdə zəruri hüquqi baza formalaşdırılıb, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib, bu sahədə zəngin təcrübə qazanılıb. Dövrün tələbinə uyğun bələdiyyələrin fəaliyyətində səmərəliliyin artırılmasının, təkmilləşdirmənin aparılmasının zəruriliyi nəzərə alınaraq yeni qanunvericilik bazası formalaşdırılıb və ötən il noyabrın 25-də Azərbaycan Prezidenti cənab İlham Əliyev bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında qanunu təsdiq edib. Həmçinin "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı qəbul olunub. Həmin normativ-hüquqi aktlara əsasən Naxçıvanda da birləşdirmə yolu ilə yeni bələdiyyələr yaradılıb və seçkilərin nəticələrinə uyğun proses tam gerçəkləşdiriləcək. Bu baxımdan budəfəki bələdiyyə seçkilərini yeni dəyişikliklərin fonunda "Konstitusiya və Suverenlik İli"nə mühüm töhfə kimi də dəyərləndirmək olar. Ümumiyyətlə, yeni qanunvericilik bələdiyyələrin fəaliyyətini hansı əsaslarla tənzimləyəcək, seçkidən sonrakı mərhələdə bu sahədə dəyişikliklər nələrdən ibarət olacaq? Elə bu və digər suallarımızı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Xəyal Eyvazova ünvanladıq:*

***– Xoş gördük, Xəyal müəllim. Bildiyimiz kimi, ilk milli Konstitusiyamız əsasında yaradılan, 25 ildən artıq bir yol qət edən yerli özünüidarəetmə orqanı – bələdiyyələrlə bağlı vəziyyət zaman-zaman müzakirə mövzusu olub. Günümüzdə də bu məsələ öz aktuallığını qoruyur. Bu baxımdan istərdim, ilk olaraq bu yerli təsisatın işinin təşkili ilə bağlı qanunvericilikdə nəzərdə tutulan müddəalara qısaca aydınlıq gətirək.***

– Yerli özünüidarə sisteminin təkmilləşdirilməsi və inkişafı ölkədə vətəndaş cəmiyyətinin formalaşması, demokratik, hüquqi dövlətin möhkəmlənməsi baxımından çox vacibdir. Bu göstəricilər bütün demokratik ölkələr kimi müstəqil Azərbaycan Respublikası üçün də xarakterikdir. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin demokratikləşməsini və səmərəli idarə edilməsində yerli özünüidarəetmənin rolunu yüksək qiymətləndirirdi. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə 12 noyabr 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının dördüncü bölməsinin, bütövlükdə, yerli özünüidarəetməyə həsr edilməsi bunun bariz ifadəsidir. Konstitusiyada yerli özünüidarənin təşkili forması, bələdiyyələrin işinin təşkili və bələdiyyələrin səlahiyyətləri göstərilmişdir. Belə ki, Azərbaycan Respublikasında yerli özünüidarəni bələdiyyələr həyata keçirir və bu təsisatlar seçki əsasında yaradılır, həmin təsisatlar isə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsilə həyata keçirir. İclasları bələdiyyənin sədri çağırır. Konstitusiya ilə nəzərdə tutulmuş qaydada bələdiyyə iclaslarında bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi, bələdiyyənin reqlamentinin təsdiq edilməsi, bələdiyyə sədri və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi, yerli vergilərin və ödənişlərin müəyyən edilməsi, yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi, bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam, yerli sosial müdafiə və sosial inkişaf, yerli iqtisadi inkişaf və yerli ekoloji proqramların qəbulu və icrası məsələləri müzakirə olunur. Eyni zamanda Konstitusiyada nəzərdə tutulmuş qaydada bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

***– Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi yerli özünüidarəetmə orqanları ilə işi necə qurub, ötən dövrdə hansı təşkilati, maarifləndirici tədbirlər həyata keçirilib?***

– Bələdiyyələrin işinin təşkilinə kömək və onlara metodoloji yardımın göstərilməsinin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi dövlət başçısının müvafiq fərmanları ilə Ədliyyə Nazirliyinə həvalə olunub və bu vəzifələrin icrası nazirliyin Bələdiyyələrlə İş Mərkəzi tərəfindən həyata keçirilir. Mərkəz tərəfindən bələdiyyələrə metodoloji yardımın göstərilməsi, onların maarifləndirilməsi məqsədilə il ərzində çoxlu sayda seminarlar keçirilib, bu tədbirlərdə xeyli bələdiyyə üzvü və qulluqçusu iştirak edib. Eyni zamanda bələdiyyə aktlarının hüquqi ekspertizası və müraciətlər üzrə araşdırma zamanı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 30-a yaxın tövsiyə və kargüzarlıq sahəsi ilə bağlı bir çox nümunələr hazırlanaraq göndərilib. Həmin tövsiyələr yerli büdcənin müzakirəsi, aktların inzibati nəzarət orqanına vaxtında təqdim edilməsi, bələdiyyə torpaqlarının idarə olunması, torpaq sahələrinin mülkiyyətə (icarəyə) ayrılması zamanı qiymətlərin bazar qiymətlərinə uyğunlaşdırılması, yerli vergi və ödənişlərin yığılması və digər məsələlərlə bağlı olub. Bu tövsiyələrdə qanunvericiliyin tələbləri izah edilib, yol verilmiş nöqsanların, qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha yol verilməməsinin zəruriliyi göstərilib.

***– Məlum olduğu kimi, ötən il noyabrın 25-də dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiqləndi. Eyni zamanda "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı qəbul olundu və yanvarın 29-da keçirilən seçkilər yeni qanunların tətbiqi üçün geniş imkanlar açacaq. Bu baxımdan dəyişikliklər barədə nə deyə bilərsiniz?***

– Son illər ölkəmizdə həyata keçirilmiş genişmiqyaslı islahatlar və sosial-iqtisadi inkişafda əldə edilən nailiyyətlər bələdiyyələrin fəaliyyətlərinin müasir səviyyədə qurulmasını zəruri edib. Yerli özünüidarəetmə fəaliyyətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə maliyyə-iqtisadi, kadr potensialı, ərazinin coğrafi və digər yerli xüsusiyyətləri nəzərə alınmaqla mövcud və yeni yaradılacaq bələdiyyələr üçün qanunvericilikdə aşağı hədd kimi əhali sayını 3000 nəfər, ev təsərrüfatlarının sayını isə 1000 vahid müəyyən edən müddəalar "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında əksini tapıb. Hesab edirik ki, bu sahədə aparılan islahatlar yerli özünüidarəetmədə müəyyən xərcləri azaldacaq və bu qurumların maliyyə-iqtisadi potensialını kifayət qədər genişləndirəcək. Bu da bələdiyyə üzvlərinin və qulluqçularının sosial təminatlarının yaxşılaşmasına, vətəndaşların bələdiyyə seçkilərinə və bələdiyyə qulluğuna marağının artırılmasına gətirib çıxaracaq və yüksəkixtisaslı kadrları bələdiyyə qulluğuna cəlb etməklə idarəetmədə müasir informasiya texnologiyalarının tətbiqi imkanlarını artırmaq mümkün olacaq. Nəticədə, bələdiyyə idarəetməsinin keyfiyyəti və səmərəsi yüksələcək, şəffaflıq və hesabatlılıq tam təmin ediləcək.

***– Bələdiyyələrlə birbaşa əlaqəli təşkilat kimi seçkilərin nəticələrinə uyğun dəyişikliklərdən irəli gələn gələcək fəaliyyət istiqamətlərini necə görürsünüz?***

– Yerli əhəmiyyətli məsələlərin tam həllinə nail olunması, vətəndaşların sosial problemlərinin həll edilməsi, sosialyönümlü layihələrin həyata keçirilməsi üçün bələdiyyələr zəruri maliyyə imkanlarına malik olmalıdırlar. Reallıqda isə əksər bələdiyyələrin mövcud büdcələri nəinki layihələrin həyata keçirilməsinə imkan verir, hətta cari fəaliyyətinin təşkilini belə ödəmir. Bu mənada, ən ciddi problemlərdən biri də vəsaitin yığılması və büdcənin formalaşması ilə bağlıdır. Yaranan çətinlik qanunvericiliklə bağlı deyil, əsas səbəb bir çox bələdiyyənin bu məsələyə soyuq münasibətilə əlaqədardır. Ona görə də bələdiyyə sədrləri öz vəzifələrinin icrasına ciddi əməl etməli, bələdiyyənin inkişafına çalışmalıdır. Bələdiyyələrin maliyyə potensialının gücləndirilməsi, yerli (bələdiyyə) vergi və ödənişlərin yığılması işinin səmərəli təşkili məqsədilə mərkəzin əməkdaşları tərəfindən mütəmadi olaraq yerlərdə yerli vergi və ödənişlərin toplanması, vergi ödəyicilərinin uçotunun düzgün aparılması, vergi ödəməkdən yayınanlarla bağlı qanunamüvafiq tədbirlərin görülməsi, gəlir və xərclər sahəsində şəffaflığın təmin olunması sahəsində bələdiyyələrə müvafiq köməkliklər göstərmək və eyni zamanda bu sahədə olan çatışmazlıqları araşdıraraq nəticəsi barədə ümumiləşdirmələr aparılması istiqamətində işlər həyata keçirilir. İnanırıq ki, bu sahədə görüləcək işlər nəticəsində bələdiyyə fəaliyyətində qanunçuluğun təmin edilməsi, qanun pozuntularının qarşısının alınması, bələdiyyə büdcəsinin yerli vergi və ödənişlər hesabına formalaşması işində müsbət nəticələr əldə olunacaq. Bu əsasda bələdiyyələr vətəndaşların bir sıra yerli əhəmiyyətli problemlərinin həlində öz imkanlarını daha da artıracaq. Bələdiyyə sədrləri əhali arasında vergilərin ödənilməsi ilə bağlı geniş maarifləndirmə və təbliğat işi aparmalı, seçiciləri qarşısında hesabat yığıncaqlarını daim keçirməli, vergilərdən əldə olunacaq gəlirlərin vətəndaşların narahat edən yerli problemlərin həllinə yönəldiləcəyini bildirməlidirlər. Bir sözlə, sakinlərlə sıx əlaqə qurmadan, onlara vergi ödəmək mədəniyyəti aşılamadan, bələdiyyənin fəaliyyətini təbliğ etmədən vergiləri tam həcmdə yığmaq mümkün olmayacaq. Hər bir kəs bələdiyyə fəaliyyətinin formalaşmasında iştirak etməli və bələdiyyədə şəffaflığın və hesabatlılığın artırılmasında ictimai nəzarətin gücləndirilməsinə dəstək göstərməlidir.

***– Suallarımızı ətraflı cavablandırdığınız üçün təşəkkür edirik.***

**Nail ƏSGƏROV**

ŞƏRQ QAPISI
**Baş redaktor müavini:**
MƏMMƏD BABAYEV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 28

*Nömrəyə məsul:* Muxtar Məmmədov, Türkanə Əsədova, Rafiq Təhməzov
*Dizayner:* Lətif Zeynalov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*